**Sosial-iqtisadi göstəricilərə dair:**

2023-cü ilin yanvar-dekabr aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə nominal ifadədə *12.8* faiz artaraq *78050.2* milyon manat təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən gəlirlər orta hesabla *7686.9* manat təşkil etmişdir.

Bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında *69341.2* milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən *12.8* faiz çox vəsait qalmışdır.



## Əmək haqqı

2023-cü ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı 2022-ci ilin müvafiq dövrünə nisbətən 11.2 faiz artaraq 923.1 manat təşkil etmişdir. Əmək haqqı neft-qaz sektorunda 3479.2 manat, qeyri neft-qaz sektorunda 874.4 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əmək haqları 890.0 manat, özəl müəssisələrdə çalışan işçilərin əmək haqları isə 959.1 manat olmuşdur.

Mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əmək haqqı ölkə üzrə orta göstəricidən yüksək olmuşdur.



**Demoqrafik vəziyyət**

Ötən dövr ərzində ölkə əhalisinin sayı 2023-cü il dekabr ayının 1-i vəziyyətinə 10176811 nəfərə çatmışdır.

Əhalinin ümumi sayının 54.6 faizini şəhər, 45.4 faizini kənd sakinləri, 49.8 faizini kişilər, 50.2 faizini isə qadınlar təşkil edir.

2023-cü ilin yanvar-noyabr aylarında ölkə üzrə 103367 doğulan körpə qeydə alınmış və əhalinin hər 1000 nəfərinə bu göstərici 11.1 təşkil etmişdir.

**Məşğulluq**

2023-cü il yanvarın 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 5249.7 min nəfər olmuş, onlardan 4963.3 min nəfərini məşğul əhali təşkil etmişdir.

2023-cü il dekabrın 1-i vəziyyətinə muzdla işləyənlərin sayı 1732.6 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 899.8 min nəfər, qeyri-dövlət sektorunda isə 832.8 min nəfər təşkil etmişdir. İqtisadiyyatın neft-qaz sektorunda 31.4 min nəfər, qeyri neft-qaz sektorunda isə 1701.2 min nəfər çalışmışdır.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 22.8 faizi məhsul istehsalı sahələrində, o cümlədən 6.4 faizi tikintidə, 7.4 faizi emal sənayesində, 3.4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 1.9 faizi mədənçıxarma sənayesində, 2.0 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1.7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olmuşdur.

2023-cü ilin yanvar-noyabr aylarında bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 148.5 saat təşkil etmişdir.